Azərbaycan Respublikasının
Təhsil Nazirliyi
Azərbaycan Universiteti

**E. Ə. Qəhrəmanov**

**Y. P. Əhmədov**

# SOSİAL İŞİN ƏSASLARI

*(Dərs vəsaiti)*

***Azərbaycan Universiteti***
***"İctimai elmlər" kafedrasının***
***26.10.2013-cü il tarixli (pr.№3)***
***və AU-nun Elmi Şurasının***
***25.12.2013-cü il tarixli (pr.№4)***
***iclaslarının qərarlarına***
***əsasən çap olunur.***

- 15155 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı - 2014**

65.272973
Q 44

**Elmi redaktor:** **f. f. d. dos R. O. Məmmədova**

**Rəy verənlər:** **f. f. d. S. Ə. Məmmədova**
**f. f. d. dos F. X. Rüstəmov**

Eldar Əvəz oğlu Qəhrəmanov
Yaşar Paşa oğlu Əhmədov
**SOSİAL İŞİN ƏSASLARI.** *(Dərs vəsaiti).*
Bakı, "B-print", 2014.

Sosial kömək göstərmək fəaliyyətinin xüsusi növü kimi sosial iş bu gün cəmiyyətin ayrılmaz funksiyasıdır. Adətən o hakimiyyətin və cəmiyyətin sosial baxımdan zəif, özünü təmin etməyi bacarmayan, çətin həyat şəraitinə düşmüş vətəndaşlara qayğı göstərilməsində təzahür edir. Müasir şəraitdə adamlara təsir edən sosial risklərin artması, yoxsulluğun cəmiyyətin bəlasına çevrilməsi və digər amillər sosiallığın aktuallığını şərtləndirir. İnsanlar müxtəlif sosial problemlərin həllinə yanaşmada xeyli biliklər, vərdişlər və ənənələr toplamışlar – keçmiş təcrübə müasir cəmiyyətə əvvəllər buraxılan səhvləri sahələri təkrarlamamağa kömək edir.

Dərs vəsaiti qısa formada sosial işin əsasları ilə bağlı əsas sualları nəzərdən keçirir – o fənn üzrə əsas biliklərə yiyələnməyə və imtahana hazırlaşmağa kömək edə bilər. Bu vəsait qısa müddətdə "Sosial iş" ixtisası üzrə mənimsənilən bilikləri sistemləşdirməyə və konkretləşdirməyə öz diqqətinizi əsas anlayışlar üzərində cəmləşdirməyə kömək edəcəkdir.

Dərs vəsaiti ali məktəb tələbələri və müəllimləri o cümlədən sosial iş üzrə mütəxəssislər, sosial işlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-440-37-8

© E.Qəhrəmanov, Y.Əhmədov, 2014



**Sosial iş elmdir**

Sosial iş elm kimi insan fəaliyyətinin sahəsidir, onun funksiyasına müəyyən gərçəklik – sosial sahə və spesifik sosial fəaliyyət - haqqında obyektiv biliklərin işlənib hazırlanması və nəzəri cəhətdən sistemləşdirilməsi daxildir. Spesifik sosial fəaliyyəti fərdlərin, ailələrin, cəmiyyətdəki qrupların və təbəqələrin sosial problemlərinin həllinə, onların yaşayış mühitinin dəyişdirilməsinə istiqamətlənən dövlət, ictimai və xüsusi təşkilatların, mütəxəssislərin və fəalların peşəkar və ictimai fəaliyyətləri kimi konkretləşdirmək olar. Elmi fənn kimi sosial işin **vəzifələrinə:** sosial işin mövcud forma və metodlarının təhlili, göstərilən obyektlərin sosial problemlərini həll etməyin optimal metodlarının və texnologiyasının işlənib hazırlanması aiddir.

Öz əsasında sosial (ictimai) elm olan sosial iş texniki və (xüsusi ilə)təbii elmlərlə bağlıdır. Onun çərçivəsi daxilində aparılan tədqiqatlar çox vaxt bir tərəfdən təbii elmlərlə (xüsusən də tibblə), digər tərəfdən, fəlsəfə, sosialogiya, psixologiya, pedaqoqiya, hüquqşünaslıq və digər sosial (ictimai) elmlərlə qarşılıqlı əlaqəsi baxımından fənlərarası xarakter daşıyır.

Ölkəmizdə sosial iş bir elm kimi hələ yaranma mərhələsindədir. Son illər ali məktəblərdə bu fənnin tədrisi ilə bağlı müvafiq kafedralar yaradılır - sosial işlə bağlı tədbirlər keçirilir, xarici ölkələrin ali məktəbləri ilə əlaqələr yaradılır, fənn üzrə proqramlar hazırlanmış və dərsliklər nəşr olunmuşdur. Lakin Azərbaycan Respublikasının AAK-ı sosial işi hələ elmi fənn kimi tanımır.

Elmi fənn kimi sosial işin xüsusiyyəti, özünəməxsusluğu **bilik və bacarıqların vəhdətindədir.** Bu onun əsas prinsipidir.

Sosial işin əsas qanunauyğunluqları:

- cəmiyyətdə, sosial siyasətdə və sosial işdə sosial proseslərin qarşılıqlı əlaqəsi;
- sosial işin məzmununun, forma və metodlarının, müxtəlif qrupların, birliklərin, fərdlərin həyat fəaliyyətlərinin konkret şəraiti ilə şərtlənməsi;
- sosial problemlərin şəxsi tələbat və kliyentlərin maraqları baxımından həll olunması;

- sosial işin nəticəsinin mütəxəssislərin peşəkarlığından və əxlaqi keyfiyyətlərindən, dövlətin və cəmiyyətin sosial sistemi imkanlarından asılılığı;

Sosial işin qanunauyğunluğu - əsaslı, sabit və təkrarlanan əlaqələrdir, sosial işin obyektinin və subyektinin qarşılıqlı fəaliyyətində təzahür edir və onun konkret sosial hadisələrin, proseslərin, münasibətlərin inkişafına təsirinin xarakter və istiqamətləri ilə şərtlənir.

**Sosial iş nəzəriyyəsinin əsas prinsipləri:**

**Sosial iş nəzəriyyəsinin əsas prinsipləri:**
- ümumfəlsəfi prinsiplər: determinizm, inikas, inkişaf;
- sosial (ictimai) elmlərin ümumi prinsipləri: tarixilik, sosial şərtlənmə, sosial dəyər;
- sosial işin spesifik (səciyyəvi) prinsipləri:

- **Məzmunlu (mənalı, dolğun)** prinsipə: özündə humanizmi, ədaləti, alturizmi, ictimai, qrup və şəxsi maraqların harmonikləşməsi, özünü təmin etmə aiddir.
- **Psixoloji-pedaqoji** prinsipə modallıq (mühakimənin doğruluq dərəcəsini göstərən kateqoriya), empatiya (kiminsə dərdinə şərik olmaq, şəfqət göstərmək), attraksiya (cazibədarlıq), inam, etibar aiddir.
- **Metodik prinsiplər qrupunun** ayrılmış, fərqləndirilmiş yanaşma, varislik, ardıcıllıq, fasiləsizlik, səriştəlik təşkil edir.
- **Təşkilati prinsiplər** ən ümumiliyi, kompleksliyi, vasitəçiliyi, həmrəyliyi, maddi yardım etməyi (əl tutmağı) müəyyən edir.

Azərbaycan Respublikasının qanunverici və digər normativ aktlarında bəzi konkret prinsiplər qısa və dürüst ifadə edilmişdir: sosial xidmət sahəsində adamların və vətəndaşların hüquqlarına riayət olunması və onların dövlət təminatı ilə təmin edilməsi; sosial xidmətin alınmasında vətəndaşlar üçün bərabər imkanlar; xidmət üçün vətəndaşların könüllü razılığı; sosial xidmətin mümkünlüyü; işdə məxfiliyə riayət olunması; sosial xidmətin bütün növlərində və formalarında olan ardıcıllıq yolu ilə keçməsi; ünvanlılıq; vətəndaşların həyatları və ya sağlamlıqları üçün təhlükəli olan vəziyyətə təsir etməyin prioritetliyi; profilaktik istiqamət; sosial reabilitasiyanın və adaptasiyanın təsiri; idarələr arası və fənlərarası mövqe; fəaliyyət





yanaşması; sosial xidmətin ərazi təşkili; əhaliyə sosial xidmət və kömək göstərilməsində könüllü ictimai fəaliyyətin dövlət tərəfindən müdafiə olunması.

**Sosial işin metodları**

Sosial işin metodları deyərkən, sosial işdə olan üsulların və əməliyyatların məcmusu, hər hansı məqsədə çatmaq üsulları, konkret vəzifələrin həll olunması başa düşülür. Sosial işdə istifadə olunan əksər metodlar fənlərarası metodlardır. Sosial işin metodlarını iqtisadi, hüquqi, siyasi, sosial-psixoloji, tibbi-sosial, inzibati-idarəetmə və s. metodlara ayrılırlar.

Bir tərəfdən, sosial işin metodları daha çox sosial işçinin və sosial xidmətin fəaliyyətinin istiqamətləndiyi obyektin spesifikası ilə şərtlənir. Digər tərəfdən, onlar həm də sosial işçinin peşəsi, onun bu və ya digər sahə üzrə ixtisaslaşması, həyat sahəsi, sosial və digər xidmətlərin strukturu ilə müəyyən olunur.

Sosial işin metodları çox vaxt bu və ya digər vəzifələrin həllində elmin nəzəri nəticələrinin tətbiq edilməsi üsulu kimi, sosial sahədə qarşıya qoyulan məqsədə çatmaq, bu və ya digər sosial problemlərin həlli üçün tətbiq olunan üsullar və təsirlərin məcmusu kimi şərh olunan daha geniş anlayış olan "sosial texnologiyaya" daxil edilir.

**Sosial iş tədris fəaliyyətidir**

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda yeni peşə - sosial iş üzrə mütəxəssis - sahəsi yaradıldı uzun müddət sosial işçilərin hazırlanması üçün. "Sosial işin nəzəriyyəsi və metodikası (texnologiyası)" tədris kursu əsas olmuşdur. Onun əsas məqsədi tələbələrə (dinləyicilərə) sosial işin məzmunu, onun əsas istiqamətləri, instrumentarları, texnologiyası (metodikası) və təşkili haqqında bütöv baxışları vermək, onlara bu işin metodlarını öyrətmək olmuşdur.

Sosial iş sahəsində təhsil üzrə Dövlət standartlarının işləyib hazırlandığı və qəbul etdiyi bu kurs ümumpeşə fənləri sırasına qəbul edildi və bir neçə fənlər təqdim olundu: sosial işin nəzəriyyəsi, sosial işin texnologiyası, xarici ölkələrdə sosial iş, sosial işin tədqiqat metdodikası, sosial işdə idarəetmə və s.

Sosial işçilərin hazırlanması proqramına həm də xüsusi fənlər daxil edilmişdir: bura həm sosial işin predmetləri, həm də digər fənlərin xüsusi bölmələri daxildir.

Sosial iş çox sahəli fəaliyyət olduğundan bu sahədə mütəxəssislərin hazırlanması predmentlər kompleksinə əsaslanır. Bu cür fənlər yığımı müxtəlif ölkələrdə eyni cür deyildir - lakin onların əksəriyyətində tələbələr məcburi qaydada sosialogiyanı, psixologiyanı, pedaqogikanı, tibbi, idarəetməni öyrənirlər. Bu fənlərdən başqa fəlsəfənin, iqtisadi nəzəriyyələrin, tarixin, kultrulogiyanın, politologiyanın, xarici dillərin, informasiya texnologiyalarının, sosial ekologiyanın və s. öyrənilməsinə də mühüm yer ayrılır. Bununla belə hər bir tədris fənni bu və ya digər dərəcədə sosial işə "xidmət edir", onun müxtəlif bölmələrini dərinləşdirməyə, zənginləşdirməyə "işləyir".

Sosial işin istənilən kursu özündə mühazirə məşğələ və praktiki məşğələlərin müxtəlif formalarını birləşdirir. Bununla belə praktiki işə üstünlük verilir - praktiki iş olmadan sosial işçi mütəxəssiz, peşəkar kimi formalaşa bilməz.

## Sosial işin anlayışlar - kateqoriyalar aparatı

Elmi və tədris fəaliyyəti kimi sosial işin fənlərarası xarakteri bu sahədə çalışan mütəxəssislərin istifadə etdikləri anlayışlar kateqoriyalar aparatında öz ifadəsini tapır.

Sosial işin elmi dairəsində istifadə olunan anlayışların təsnifatı:

1. Sosial işin elm kimi spesifik kateqoriyaları olmayan terminlər və anlayışlar. Onlardan daha çox konkret fənlərlə bağlı olan anlayışları ayırmaq olar. Məsələn, "sosial sahə", "sosial münasibətlər" - sosialogiya, pedaqogika və s.

2. Əsasən sosial işə aid olan, eyni zamanda digər elmlərdə istifadə olunan anlayışlar. Bu anlayışlar ilk növbədə sosial işin obyektlərini və əsas istiqamətlərini, onun texnologiyasını, sosial xidmət və müəssisələri, digər subyektləri müəyyən edirlər. Onlardan "risk qrupu", "əhalinin zəif müdafiə olunan təbəqəsi", "deviant davranışlı adamlar və qruplar" və s. ayırmaq olar.

Əsas anlayışlar və kateqoriyalar:

**Sosial müdafiə** deyərkən adamların minimal həyat şəraitini təmin edən adamların, bütövlükdə cəmiyyətin mövcudluğunun həyat





təminatını və fəaliyyətini müdafiə edən cəmiyyət və onun müxtəlif strukturları tərəfindən həyata keçirilən tədbirlər sistemi başa düşülür.

**Sosial kömək, yardım** – həyatda qarşılaşdıqları çətinlikləri yüngülləşdirmək və ya aradan qaldırmaq, adamların sosial statusunu və yetkin həyat fəaliyyətini təmin etmək, onların cəmiyyətə adaptasiyalarına kömək etmək üçün sosial xidmətin ayrı-ayrı adamalara və ya əhali qrupuna göstərdikləri kömək və xidmət, təsir formasında olan sosial tədbirlər sistemidir.

**Sosial işə** insan fəaliyyətinin növlərindən biri kimi baxmaq olar, onun məqsədi şəxsiyyətin, ailənin, cəmiyyətdəki sosail və digər qrup və təbəqələrin həyat təminatı və fəaliyyətləri prosesində cəmiyyət həyatının bütün sahələrində adamların subyektiv rollarının həyata keçirilməsinin optimallaşmasıdır.

Sözün geniş mənasında sosial işə bilik və bacarıqların işlənib hazırlanması və nəzəri cəhətdən sistemləşdirilməsinə, əhalinin müxtəlif, ilk növbədə zəif qruplarının tələbatlarını və maraqlarını təmin etmək məqsədi ilə bilik və bacarıqların ötürülməsi və mənimsənilməsinə, qrup (və təbəqə) və ayrı-ayrı adamların sosial fəaliyyətinin bərpa olunması üçün şəraitin yaradılmasına istiqamətlənən elmi, tədris və praktiki fəaliyyət kimi baxmaq olar.

**Sosial reabilitasiya** - şəxsiyyətin, ictimai institutların, sosial qrupların əsas sosial funksiyalarının, onların cəmiyyət həyatının əsas sahələrinin subyekti kimi sosial rollarının bərpa edilməsi prosesidir.

**"Sosial zəmanət"** - adamların həyat təminatını və fəaliyyətlərini qorumaq tələbatını həyatı keçirməyə, görülən işlərin və xidmətlərin yerinə yetirilməsinə istiqamətlənən tədbirlər, normativ qaydalar və şəraitlər sistemidir.

**Sosial işçi** - bu sosial iş sahəsində olan mütəxəssisdir; bu peşədir, ixtisasdır, sosial iş sahəsində ixtisasların məcmusudur.

## Sosial işin əsas komponentləri

İctimai fenomen və fəaliyyətin xüsusi növü kimi sosial iş özündə bir sıra **komponentləri** birləşdirir: obyekt, subyekt, məzmun, funksiya, vasitə, məqsəd və idarəetmə. Onlar öz aralarında üzvü surətdə, sıx qarşılıqlı şəkildə bağlıdırlar, xüsusi sosial sistem yaradırlar.

Sosial işin mühüm komponenti: **onun məzmunudur,** o müxtəlif funksiyalarla müəyyən olunur: informasiya, diaqnostika, proq-

noz, təşkilatı, psixi-pedaqoji, idarəetmə, eyni zamanda praktik kömək göstərmək funsiyaları.

Sosial iş müxtəlif **vasitələrin** (predmetlərin, alətlərin, fəaliyyətin) köməyi ilə həyata keçirilir, bu da fəaliyyətin məqsədinin həyata keçməsinə imkan verir. Müxtəlif vasitələr - onlardan işgüzar əlaqələr, şəxsi kontaklar, söz, psixoterapiyanın üsulları, şəxsi ünsiyyət, eyni zamanda telefon, xüsusi hesablama blankları və s. - sosial işin, onun obyektlərinin funksiyalarının müxtəlifliyi, rəngarəngliyi ilə şərtlənir.

**İdarəetmə** sosial işin (ilk növbədə praktiki) komponenti kimi özündə obyektlərin vəziyyətinin təhlilini və qiymətləndirilməsini, planlaşdırmanı, qərarların işlənib hazırlanması və qəbul edilməsini, hesabat və nəzarəti, tənzimləməni, təşkilatı və maddi-texniki təminatı, sosial işçilərin seçilməsini, hazırlanmasını və tərbiyə edilməsini birləşdirir.

Sosial işin mühüm komponentlərindən biri də kliyentin tələbatlarının və maraqlarının təmin olunması kimi onun **məqsədidir.** Bu ümumi məqsəd onun tərkib hissələrinin nəzərə alınması ilə konkretləşdirilə bilər: kliyentin müstəqillik səviyyəsinin gücləndirilməsi, onların öz həyatlarına nəzarət etmək, yaranan problemləri daha effektli həll etmək bacarıqları; elə şərait yaratmaq lazımdır ki, kliyent öz imkanlarını maksimum səviyyədə təzahür etdirə bilsin və qanunla ona məxsus olanları ala bilsin; kliyentin cəmiyyətə adaptasiyası və reabilitasiyası; elə şərait yaratmaq lazımdır ki, adamlar fiziki qüsurlara, ruhi düşkünlüyə və ya həyat böhranlarına baxmayaraq yaşasınlar, onlarda şəxsi ləyaqət hissləri qorunsun və ətrafdakılar tərəfindən özlərinə qarşı hörmət hiss etsinlər.

Həm məqsəd, həm də sosial işin digər komponentləri, onların kimə istiqamətlənməsinin (yəni obyektin) və onları kimin reallaşdırılmasının (subyekt) spesifikliyi ilə müəyyən olunur.

Sosial işin obyekti köməyə, müdafiəyə, qayğıya ehtiyacı olanlardır, subyektləri isə - bu köməyi göstərənlər, sosial müdafiəni həyata keçirənlərdir.





## Sosial işin obyektləri

Sosial işin obyektləri bu və ya digər cəmiyyətin sosial-iqtisadi şəraitinin təsiri altında meydana gəlir, formalaşır.

Obyekti öz predmet-praktiki və dərketmə fəaliyyətində subyektə əks kimi şərh etmək olar. O yalnız obyektiv reallığın eyni olmayıb, həm də onun tərkib hissəsidir, subyektlə qarşılıqlı fəaliyyətdədir.

Əgər sosial işə elm kimi baxsaq onda obyekt-predmet münasibətlərlə qarşılaşmalı oluruq. Bu vaxt obyektə praktiki sosial gerçəkliyin müəyyən növü kimi baxılır.

Sosial işi tədris prosesi kimi təhlil edəndə, obyekt kimi (əsasən) tələbələr, dinləyicilər çıxış edirlər.

Sosial işin obyekti kimi geniş şərhdə bütün adamlar, bütün əhali çıxış edir.

Sosial iş obyektlərinin qrupları:

- **mürəkkəb həyat şəraitinə düşən əhali.** Praktiki sosial iş haqqında danışarkən ilk növbədə çətin həyat şəraitinə düşmüş əhaliyə kömək göstərmək, onları müdafiə etmək nəzərdə tutulur. Bu gün böhranlı şəraitdə çətin həyat şəraitinə düşən adamların sayı kifayət qədər çoxdur.

Bu cür obyektlərin təsnifatı üçün əsas:

1. **Sağlamlıqlarının vəziyyəti; səhətlərində olan problemlər** - bu hal adamlara və ya qruplara sərbəst şəkildə öz həyat problemlərini tam şəkildə və ya ümumiyyətlə həll etməyə imkan vermir (əlilər, radiasiya təsirinə məruz qalanlar, əlil uşaqları olan ailələr, eyni zamanda psixi çətinlikləri olan, psixoloji stres keçirən, suisid davranışa meylli olan qruplar).
2. **Ekstremal sosial şəraitdə xidmət və əmək** (müharibə vaxtı).
3. **Qoca, təqaüd yaşlı adamlar.** Bura tənha yaşlı adamlar, yalnız təqaüdçülərdən ibarət olan ailələr aiddir.
4. **Deviant davranış - onun müxtəlif formaları və növləri.**
5. **Müxtəlif kateqoriyali ailələrin çətin, xoşagəlməz vəziyyəti.**

Himayəsində yetim usaqları olan, valideyn himayəsindən məhrum olan usaqlar, gəlirləri aşağı olan ailələr, çoxuşaqlı ailələr və s.

**6. Usaqların xüsusi vəziyyəti** (yetimlik, səfillik)
**7. Səfillik, avaralıq, evsizlik.**
**8. Qadının doğuşdan əvvəlki və doğuşdan sonrakı vəziyyəti.**
**9. Siyaysi represiyaya məruz qalmış və sonradan reabilitasiya olunmuş şəxslərin hüquqi (bununla bağlı həm də sosial) vəziyyətləri.**

**Adamların həyat fəaliyyətlərinin müxtəlif sahələri.** Həyat fəaliyyəti sahələri sosial işin obyekti kimi olduqca çoxsahəlidir. Onların arasında aşağıdakılar vacibdir:

- istehsalat sahəsi; istehsal və sosial infrastrukturlar;
- şəhər və kənd; eyni zamanda məskunlaşmanın aralıq formaları;
- səhiyyə sahəsi;
- təhsil sahəsi;
- elm sahəsi;
- mədəniyyət sahəsi;
- mədəni-asudə sahəsi;
- cəmiyyətin güc strukturu;
- penitensiar sistem;
- sosial etnik mühit;
- əhaliyə məişət xidməti sahəsi;

## Sosial işin subyektləri

Sosial işin obyektləri bu və ya digər səviyyədə həm də sosial işin subyektləri ola bilərlər. Sosial işin obyektləri köməyə, qayğıya, sosial müdafiəyə ehtiyacı olanlardır, **subyektlər** isə bu köməyi edənlər, qayğıya qalanlar, müdafiəni təşkil edənlərdir.

Sosial işin subyekti kimi aşağıdakılar çıxış edirlər:

**1. Təşkilatlar, müəssisələr, cəmiyyətin sosial institutları** onlara aiddirlər:

- dövlət müxtəlif səviyyəli qanunverici, icraedici və məhkəmə hakimiyyəti timsalında öz strukturları ilə səhiyyə və sosial inkişaf nazirliyi, o cümlədən region səviyyəsində (ölkə, vilayət, respublika, muxtar birliklərin sosial müdafiə orqanları) şəhər yerli özünü idarəetmə sahəsindəki sosial işin idarə olunması idarəedici orqanları;





- müxtəlif sosial xidmət növləri: ailə və usaqlara sosial köməyin ərazi mərkəzləri; yetkinlik yaşına çatmayanlar üçün sosial reabilitasiya mərkəzləri; valideyn himayəsindən məhrum olan usaqlara kömək mərkəzi; usaqlar və yeniyetmələr üçün reabilitasiya mərkəzləri.

- dövlət müəssələri, təşkilatları, idarələrinin, ali məktəblərin və s. və onların bölmələrinin administrasiyası.

**2. İctimai, xeyriyyə və digər təşkilatlar və müəssisələr:** həmkarlar ittifaqı, Uşaq fondu şöbələri, Qırmızı Aypara cəmiyyəti, xüsusi sosial xidmətlər, təşkilatlar və s.

**3. Peşəkar və ya ictimai əsaslarla praktiki sosial işlə məşğul olan adamlar.** Faktiki olaraq onlar yuxarıda göstərilən sosial iş subyektlərinin nümayəndələridirlər. Bununla belə onları iki qrupa bölmək olar: təşkilatçı - idarəedənlər və icra edənlər, praktiki sosial işçilər - onlar bilavasitə kömək edir, qayğıya qalırlar, kliyentlərin, sosial iş obyektlərinin yuxarıda göstərilən nümayəndələrinin sosial müdafiəsini təmin edirlər.

**4. Müəllimlər, o cümlədən biliklərin, vərdişlərin, bacarıqların möhkəmlənməsinə kömək edənlər.** Onlara praktika rəhbərləri, ustadlar, praktiki sosial işçilər və tələbələrin (dinləyicilərin) müxtəlif təşkilatlarda, müəssisələrdə, sosial sahə idarələrində təcrübə keçmələrinə kömək edən digər işçilər aiddirlər.

Eyni zamanda oxuyanlar təhsil prosesinin bütün əsas mərhələlərində subyekt kimi çıxış edə bilərlər: müstəqil şəkildə ədəbiyyatlar oxuya, məruzələr hazırlaya, kurs, diplom işləri və s. yaza bilərlər, ikinci kursdan başlayaraq praktika keçərkən bir sıra işlər yerinə yetirə bilərlər.

**5. Sosial iş tədqiqatçıları** - müxtəlif metodlardan istifadə edərək sosial işin vəziyyətini təhlil edirlər, elmi proqramlar hazırlayırlar, bu sahədə mövcud olan və yeni yaranan meylləri qeydə alırlar, elmi hesabatlar, kitablar, sosial iş problemi üzrə məqalələr çap etdirirlər.

Azərbaycanda praktiki olaraq sosial iş üzrə bir neçə tədqiqat məktəbləri yaradılmışdır - Azərbaycan Universiteti bir sıra xarici ölkələrin ali məktəblərində fəaliyyət göstərən sosial iş üzrə tədqiqat mərkəzləri ilə əməkdaşlıq edir, universitetin özündə artıq tədqiqat mərkəzi fəaliyyət göstərir.

Hörmətli oxucu,

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

